**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BEYNƏLXALQ VALYUTA ARXİTEKTURASININ FORMALAŞMASININ MİLLİ İQTİSADİYYATA TƏSİRİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5310.01 - Dünya iqtisadiyyatı

Elm sahəsi: 53 - iqtisad elmləri

İddiaçı: **Azər Rasim oğlu Həsənli**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2023**

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: İqtisad elmləri doktoru, professor
**Ədalət Bayraməli oğlu Əliyev**

Rəsmi opponentlər: İqtisad elmləri doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

İqtisad elmləri doktoru, professor
**Elşən Mahmud oğlu Hacızadə**

İqtisad elmləri doktoru, professor
**Fuad Əlinağı oğlu Qənbərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ imza

Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ______________ imza

iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ______________ imza

iqtisad elmləri doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XÜLASƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində iqtisadi münasibətlərin təşəkkülü sistemli dəyişikliklərə məruz qalmaqdadır. Bu dəyişikliklər təkcə qloballaşmanın ekspanionist xarakterində deyil, həm də qlobal böhranların doğurduğu yeni sistem çevrilmələri ilə özünü büruzə verir. Bu proseslər dünya iqtisadiyyatının bütün seqmentlərində – beynəlxalq ticarət sistemi, beynəlxalq valyuta arxitekturası (BVA), habelə qlobal miqrasiya axınları və digər sahələrdə milli və üstmilli tənzimləmə mexanizmlərinin formalaşdırılmasını zərurətə çevirir. Bu çərçivədə BVA-nın yenidən dizayn edilməsi və çoxtərəfli əməkdaşlıq mexanizminin gücləndirilməsi qlobal iqtisadi siyasət quruculuğu qarşısındakı başlıca çağırışlardandır.

BVA-nın təkamülü müasir qlobal iqtisadi sistemin formalaşmasının təsiri altında bir neçə mərhələdən keçmişdir. Lakin bir mərhələdən digərinə keçid hamar təkamül ilə deyil, daha çox sistem əhəmiyyətli səbatsızlıqlarla şərtlənmişdir. BVA-nın müxtəlif mərhələləri qlobal makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsinə qismən töhfə versə də, bunların heç birində məzənnə uyğunsuzluqlarının aradan qaldırılması, kəskin səbatsızlıqlar doğuran xarici sektor amillərinin neytrallaşdırılması və dayanıqlı qlobal likvidlik təminatının həyata keçirilməsi ilə əlaqədar təkmil, uzunmüddətli və çoxtərəfli siyasət əməkdaşlığı mexanizminin formalaşdırılması mümkün olmamışdır. Məhz çoxtərəfli əməkdaşlıq formatı çərçivəsində bəzən uzunmüddətli oyun qaydalarının təsbit edilməməsi, bir sıra hallarda isə institutlaşmaması beynəlxalq valyuta münasibətlərinin sistem deyil, daha çox xaotik nizam və ya münasibətlər arxitekturası kimi təşəkkülünə yol açır.

Milli və qlobal maliyyə sistemlərinin qarşılıqlı asılılığının artması fonunda qlobal likvidlik təminatında təkcə ölkələrin və üstmilli institutların rəsmi ehtiyatları deyil, özəl kapital və maliyyə axınları da həlledici əhəmiyyət daşıyır. Bu şərait tədiyə balansında cari əməliyyatlar kəsirini qlobal maliyyə bazarlarından daha çox borclanma ilə maliyyələşdirmə imkanı versə də, iqtisadi siyasət intizamının pozulmasına yol açır. Xarici sektor səbatsızlıqlarının asimmetrik paylanması kimi BVA-nın xroniki çatışmazlığı fonunda son illərdə qlobal borclanma bütün komponentlər ən yüksək səviyyəyə yüksəlmişdir. Bu amil likvidlik ehtiyacını artırır ki,

bu zaman qlobal rezerv sisteminin çatışmazlıqları daha ciddi makroiqtisadi təhdidlər doğurur.

Milli valyuta əsaslı qlobal rezerv sistemi beynəlxalq ehtiyat valyuta emitenti üçün üstünlüklər təmin etsə də, eyni zamanda Triffin dilemmasına yol açır. Çoxvalyutalı qlobal rezerv sisteminə keçid çağırışları müasir dövrdə davam etsə də, bu valyutaların potensial emitentlərinin (Avropa İttifaqı və Çin) siyasi güc və etimad, makroiqtisadi dayanıqlıq və maliyyə bazarlarının dərinliyi aspektlərindən ABŞ-la rəqabət imkanları hələki yüksək deyil. Nəticədə tənzimlənən məzənnə rejimləri və beynəlxalq kapital axınlarının genişlənməsi, effektiv üstmilli tənzimləmə çərçivələrinin çatışmazlığı və asimmetrik xarici sektor səbatsızlıqları BVA-nı qlobal maliyyə və makroiqtisadi sabitliyi üçün təhdidlərdən birinə çevirir. Həmçinin güclənən geosiyasi ziddiyyətlər fonunda, xüsusilə ABŞ başda olmaqla BVA-nın "faktiki dizaynerləri"nin Rusiyaya tətbiq etdikləri iqtisadi sanksiyaların yaratdığı yeni qlobal "valyuta münasibətləri"nin çoxşaxəli və geniş coğrafiyalı təsirləri mövzunun aktuallığını daha da artırır.

BVA-nın çatışmazlıqları və yeni format çağırışları milli iqtisadiyyatlar, xüsusilə inkişaf etməkdə olan ölkələr (İEOÖ) üzərində əhəmiyyətli makroiqtisadi dayanıqlıq və inkişaf çağırışları formalaşdırır. Bu çərçivədə tranzitivlik xüsusiyyətlərini hələ də qoruyan və resursla zəngin ölkələrə (RZÖ) xas makroiqtisadi və struktur çatışmazlıqlara malik ölkə kimi Azərbaycanın gələcək strateji inkişaf hədəflərinin realizasiyasına BVA-da baş verən struktur dəyişiklikləri təsir edir. Dissertasiyada bu təsir imkanlarının müxtəlif kanallar üzrə qiymətləndirilmişdir.

Milli iqtisadiyyatın dayanıqlı inkişafına təhdidlərin, habelə struktur və institusional zəifliklərinin düzgün identifikasiyası orta və uzunmüddətli strateji islahat kursunun formalaşdırılması və icrası baxımından əhəmiyyət daşıyır. Bu baxımdan dissertasiya mövzusunun aktuallığı qlobal və milli iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi problemləri ilə birbaşa əlaqəlidir.

Tədqiqat mövzusu kifayət qədər geniş olduğu üçün onun öyrənilməsi üzrə təşəbbüsləri iki istiqamət üzrə fərqləndirmək mümkündür. Birinci istiqamət üzrə tədqiqatlar BVA-nın kompleks öyrənilməsini, onun çatışmazlıqlarının təhlilini və inkişaf perspektivlərinin müəyyənləşdirilməsini əhatə edir. Bu istiqamətdə R.Mandel, B.Ayxenqrin,

E.Truman, P.Kenen, M.Obstfeld, X.A.Okampo, E.Farhi, R.Mohan, C.Frankel, R.Solomon, R.Triffin, C.Halm, C.Uilyamson və s. kimi iqtisadçılar tərəfindən aparılan tədqiqatlarda daha çox BVA-nın tarixi inkişafı kontekstində onun çatışmazlıqları şərh edilmiş və yeni format dəyişiklikləri zərurəti altında islahatların əsas konturları qiymətləndirilmişdir. İkinci istiqamətdə aparılan tədqiqatlar isə daha çox BVA-nın ayrı-ayrı komponentlərinin və makroiqtisadi səviyyədə onların təsir imkanlarının öyrənilməsini əhatə edir. Bu çərçivədə mərkəzi bankçılığın, pul və məzənnə siyasətinin müxtəlif aspektlərinə, habelə xarici valyuta ehtiyatlarının makroiqtisadi təsirlərinə dair M.Bordo, A.Şvartz, Q.Adler, K.Duran, C.Qopinat, E.Boz, K.Raynhart, C.Berqsten, C.Qanyon, qlobal likvidlik təminatı və rezerv sistemi problemlərinə dair S.Ayar, E.Fernandez-Arias, R.Nurkse, E.Hellayner, üstmilli monetar institutlar və beynəlxalq monetar əməkdaşlıq məsələlərinə dair R.Mosner, C.Ayzenman, Y.Cincarak, S.Kirşner, P.Subaççi, beynəlxalq kapital axınları və beynəlxalq kredit tsiklləri üzrə K.Borio, H.Şin, B.Ksonto, H.Rey, P.Qurinşa, K.Habermayer tərəfindən çoxsaylı tədqiqatlar aparılmışdır.

Azərbaycan iqtisadiyyatının makroiqtisadi dayanıqlıq və inkişaf çağırışlarına dair Ə.Muradov, E.Rüstəmov, R.Həsənov, Ş.Hacıyev, Y.Həsənli, Ə.Bayramov, Ə.Ələkbərov, F.Qənbərov, İ.Əhmədov, Ş.Adıgözəlov, X.Abdullayev, A.Mehtiyev, R.Ağayev, iqtisadi şaxələndirmə və pul siyasəti çağırışlarına dair F.Mustafayev, E.Hüseynov, Ş.Qafarov, Z.Məmmədov, B.Əhmədov, F.Həsənov, F.Hüseynov, T.Kərimli, R.Rəhmanov, Ş.Muxtarov, C.Məmmədov, N.Quliyev, X.Alıyev və başqaları tərəfindən tədqiqatlar aparılmışdır. Bu tədqiqatlar daha çox makroiqtisadi kontekstdə milli iqtisadiyyatın inkişaf çağırışlarının təhlilinə yönəlmiş, BVA şoklarının milli iqtisadiyyata ötürücülük kanalları isə geniş təhlil edilməmişdir. Bu baxımdan mövcud tədqiqat Azərbaycanda BVA-nın formalaşması və inkişafı probleminə, eləcə də onun müxtəlif komponentlərinin milli iqtisadiyyata təsir kanallarının öyrənilməsinə yönəlmiş ilk elmi tədqiqat işlərindən biri hesab oluna bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir beynəlxalq valyuta münasibətləri və milli iqtisadiyyatın inkişaf problemləri təşkil edir. Tədqiqatın predmetini BVA-nın müasir çatışmazlıqları və islahat təşəbbüsləri, eləcə də milli iqtisadiyyatın makroiqtisadi dayanıqlıq çağırışları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədini qlobal format dəyişiklikləri fonunda BVA-nın islahat çağırışlarının müəyyənləşdirilməsi və bu çağırışların Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına təsirlərinin qiymətləndirilməsi təşkil edir. Tədqiqat məqsədləri çərçivəsində aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- BVA-nın təkamül mərhələləri üzrə başlıca səbatsızlıq mənbələrinin müəyyənləşdirilməsi;
- BVA-nın sistem əhəmiyyətli müasir islahat çağırışlarının identifikasiyası və inkişaf perspektivləri əsasında milli iqtisadiyyatlara təsirlərinin qiymətləndirilməsi;
- Azərbaycan iqtisadiyyatının müasir islahatlar mərhələsində başlıca inkişaf çağırışları və məhdudiyyətlərinin qiymətləndirilməsi;
- BVA-nın xroniki və yeni format dəyişikliklərindən qaynaqlanan səbatsızlıqların milli iqtisadiyyata əsas ötürücülük kanallarının təhlili;
- Azərbaycan iqtisadiyyatının strateji inkişaf çağırışlarına uyğun olaraq makroiqtisadi sabitliyin gücləndirilməsinə, iqtisadi inkişafın dayanıqlığının təmin edilməsinə yönələn təkliflərin hazırlanması.

**Tədqiqatın metodları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını iqtisadçı alimlər, müxtəlif akademik mərkəzlər və beynəlxalq iqtisadi təşkilatların tədqiqat və tövsiyələri, siyasət sənədləri və analitik hesabatlarından doğan nəzəri və metodoloji mülahizələr, habelə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və iqtisadi inkişafın təmin edilməsinə yönələn dövlət proqramları və digər iqtisadi sənədlər, eləcə də müvafiq sahədə qəbul edilən normativ aktlar və s. təşkil edir. Dissertasiya işi müxtəlif iqtisadi təhlil metodları, o cümlədən müqayisəli və sistemli təhlil, induksiya və deduksiya, elmi abstraksiya, statistik qiymətləndirmələr və s. üsullar istifadə edilməklə yerinə yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Aparılan təhlillər BVA-nın müasir format çağırışlarının dünya iqtisadiyyatının strukturunda ciddi dəyişikliklər şərtləndirdiyini, habelə bu dəyişikliklərin milli iqtisadiyyatlara təsir kanalları və miqyasının iqtisadiyyatın açıqlıq səviyyəsi, strukturu və makroiqtisadi siyasətin xarakteri kimi müxtəlif amillərin təsiri altında fərqləndiyini göstərir. Tədqiqatların yekunu olaraq müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılardır:

- BVA-nın müasir format çağırışları dünya iqtisadi arxitekturunda

milli dövlətlərin suverenliyi və iqtisadi qloballaşma arasında ziddiyyətləri artırır. Maliyyə qloballaşmasının təsiri altında xarici suverenlik təzyiqlərinin neytrallaşdırılması prosesində milli dövlətlər universal üstmilli təsisatlardan daha çox regional əməkdaşlıq mexanizmlərində iştiraka meyillidirlər;

- Qlobal iqtisadi konyunkturun struktur çağırışları makroiqtisadi siyasət quruculuğunda əhəmiyyətli dəyişikliklər doğurur. Bu dəyişikliklər həm institusional (mərkəzi bankçılıqda baş verən dəyişikliklər, pul və fiskal siyasətlər arasında koordinasiyanın genişlənməsi və s.), həm də funksional (makroprudensial siyasətin əhəmiyyətinin artması, yeni maliyyə institutlarının meydana çıxması və s.) xarakter daşıyır. Bu dəyişikliklər xarici şoklara qarşı dayanıqlığının təmin edilməsində makrosəviyyəli siyasət quruculuğu imkanlarının genişləndirilməsini, həmçinin yeni mandatlı üstmilli əməkdaşlıq formatlarında adekvat iştirakçılığı şərtləndirir;

- Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişaf çağırışları çoxşaxəli makroiqtisadi və struktur siyasət tədbirlərinin implementasiyasını şərtləndirir. Bu tədbirlər struktur transformasiyasının tamamlanmasına və uzunmüddətli iqtisadi inkişafı təmin edəcək adekvat makroiqtisadi, xüsusilə pul siyasəti çərçivələrinin formalaşdırılmasına istiqamətlənməlidir. Azərbaycan iqtisadiyyatının miqyas və struktur xüsusiyyətləri baxımından BVA şoklarının birbaşa təsir imkanları geniş olmasa da, xüsusilə tranzitiv və resursla zəngin ölkələrə xas problemlər iqtisadi siyasət quruculuğunda effektiv institusional islahatların keçirilməsini zəruri edir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

1. Təkamül xüsusiyyətlərinin nəzəri-metodoloji təhlili ilə müəyyənləşdirilmişdir ki, BVA-nın fəaliyyətində mütəmadi müşahidə olunan çatışmazlıqların başlıca mənbəyini üç amil – məzənnə rejimi uyğunsuzluqları, xarici sektor səbatsızlıqları və onların ölkələr arasında asimmetik paylanması, qlobal rezerv sistemi və dayanıqlı qlobal likvidlik təminatı çatışmazlıqları təşkil etmişdir;

2. BVA-nın mövcud islahat çağırışları geniş spektr üzrə təhlil edilmiş, hər biri üzrə perspektiv makroiqtisadi təsir imkanları qiymətləndirilmişdir. Müəyyən edilmişdir ki, qlobal rezerv və likvidlik sistemi dəyişiklikləri pul və makroprudensial siyasət alətlərinin effektivliyini və iqtisadi tsiklə təsir imkanlarını əsaslı dəyişir. Digər tərəfdən maliyyə

texnologiyalarının inkişafı pul siyasəti və maliyyə vasitəçiliyi sistemində yeni aktorları meydana çıxarır, qlobal iqtisadiyyatın institusional idarəetmə mexanizmlərində üstmilli və regional institutlarının əhəmiyyətini isə daha da artırır;

3. BVA-dan qaynaqlanan səbatsızlıqların Azərbaycan iqtisadiyyatına əsas monetar təsir kanalları məzənnə və tədiyə balansı, makromaliyyə kanalları isə dollarlaşma və Dövlət Neft Fondunun valyuta ehtiyatları kimi müəyyən edilmişdir;

4. Milli iqtisadiyyata təsir kanallarını şərtləndirən və daxildən qaynaqlanan struktur çatışmazlıqları kimi protsiklik pul siyasəti mövqeyi, dollarlaşma təzyiqləri və qeyri-sistematik makroiqtisadi siyasət koordinasiyası müəyyən edilmişdir;

5. Yeni inkişaf mərhələsində milli iqtisadiyyatın dayanıqlı inkişafına potensial təhdidlərin məhdudlaşdırılması istiqamətində:

- Struktur islahatların qlobal trendlər və sektorlar üzrə rəqabətlilik imkanlarının qiymətləndirilməsi, habelə daha yüksək əlavə dəyər potensialına malik sektorların dəstəklənməsi əsasında həyata keçirilməsi;
- Siyasət quruculuğunun institusional və funksional imkanlarının genişləndirilməsi, makroiqtisadi siyasət intizamının gücləndirilməsinə istiqamətlənən mexanizmlərin tətbiqi, o cümlədən fiskal və pul siyasətlərinin səmərəli, çevik və nəticəli institusional koordinasiyasının təmin edilməsi;
- Faiz dərəcəsi kanalının funksionallığının gücləndirilməsi və pul siyasətinin iqtisadiyyatın real sektoruna təsir imkanlarının artırılması;
- Maliyyə vasitəçiliyinin gücləndirilməsi, yüksək xərc tutumluluğuna yol açan amillərin – aşağı yığım səviyyəsi, məhdud daxili və xarici maliyyələşmə imkanlarının aradan qaldırılması;
- Milli iqtisadiyyatda özəl sahibkarlığın rolunun yüksəldilməsi ilə dövlət müdaxiləsinin bazar uğursuzluqlarının məhdudlaşdırılması və dövlətin fiskal yükünün azaldılması;
- Mövcud struktur çağırışları fonunda məzənnə siyasətinin lövbərli tənzimlənmədən çevik üzən tənzimləmə rejiminə transformasiyanın təmin edilməsi məqsədəuyğun hesab edilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat çərçivəsində aparılan konseptual ümumiləşdirmə, qiymətləndirmə və təkliflər mühüm strateji islahat çağırışı kimi dünya iqtisadiyyatına inteqrasiyanın

sürətləndirilməsi aspektindən, həmçinin siyasət qurucuları üçün iqtisadi proseslərə adekvat fəaliyyət çərçivələrinin formalaşdırılması baxımdan əhəmiyyət daşıyır. Tədqiqatın təhlil məhsulları, nəticə və təklifləri makroiqtisadi siyasət quruculuğunun müxtəlif aspektlərinin formalaşdırılmasında, strateji islahat sənədlərinin hazırlanmasında, habelə tədqiqat mərkəzlərində, eləcə də iqtisad profilli ali təhsil müəssisələrinin tədris prosesində istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Tədqiqatın işinin əsas nəticələri müxtəlif respublika və beynəlxalq konfranslarda, habelə ölkə daxilində və xaricdəki jurnallarda 23 elmi məqalə, konfrans materialı və tezis şəklində öz əksini tapmışdır. Ölkə daxilində 10 məqalə, beynəlxalq xülasələndirmə sistemlərinə daxil jurnallarda isə 3 məqalə dərc edilmişdir. Beynəlxalq konfranslarda 8, respublika konfranslarında 2 məruzə ilə çıxış edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda (hazırda İqtisadi Elmi Tədqiqat İnstitutu) yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş (13872 işarə), hər biri 3 paraqrafdan ibarət olmaqla 3 fəsil (I fəsil - 61080 işarə, II fəsil 82165 işarə, III fəsil 77794 işarə), nəticə (14147 işarə), 10 əlavə və 183 adda istifadə edilmiş ədəbiyyat siyahısı və ixtisarların siyahısı ilə birlikdə 171 səhifədən ibarətdir. Dissertasiya əlavələr, cədvəllər, qrafiklər, şəkillər və ədəbiyyat siyahısı istisna olmaqla 249058 işarəni təşkil edir.

# DİSSERTASİYA STRUKTURU

**Giriş**

**I fəsil. Beynəlxalq valyuta arxitekturasının təşəkkülü və təkamülünün nəzəri əsasları və xüsusiyyətləri**

1.1 Beynəlxalq valyuta münasibətlərinin iqtisadi kateqoriya kimi formalaşmasının nəzəri əsasları

1.2 Beynəlxalq valyuta arxitekturasının formalaşmasını şərtləndirən amillər və xüsusiyyətləri

1.3 Yeni dünya iqtisadi nizamının təşəkkülü mərhələsində valyuta tənzimlənməsinin səciyyəvi xüsusiyyətləri

**II fəsil. Qloballaşan iqtisadiyyatda valyuta arxitekturasının yenidən strukturlaşma çağırışlarının əsas istiqamətləri**

2.1 Beynəlxalq valyuta arxitekturasının müasir səbatsızlıq mənbələri və onların xüsusiyyətləri

2.2 Qlobal valyuta tənzimlənməsi mexanizmində monetar əməkdaşlığın gücləndirilməsi zərurəti və problemləri

2.3 Beynəlxalq valyuta arxitekturasında yeni formatlaşma meyilləri və güc mərkəzlərinin yerdəyişməsi təmayülləri

**III fəsil. Dəyişən beynəlxalq valyuta arxitekturası çağırışlarının milli iqtisadiyyata təsir istiqamətləri**

3.1 Azərbaycanda iqtisadi siyasət quruculuğunda BVF proqramlarının şərtləndirmələri

3.2 Beynəlxalq valyuta arxitekturası volatilliklərinin milli iqtisadiyyata təsir kanallarının identifikasiyası

3.3 Yeni iqtisadi mərhələdə Azərbaycanda dayanıqlı inkişaf çağırışlarının əsas istiqamətləri

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

**Əlavələr**

**İxtisarların siyahısı**

## TƏDQİQATIN QISA MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın öyrənilmə səviyyəsi, predmeti, məqsəd və vəzifələri müəyyən olunur, işin nəzəri və metodoloji əsasları, elmi yeniliyi və təcrübi əhəmiyyəti yer almışdır.

Dissertasiyanın **“Beynəlxalq valyuta arxitekturasının təşəkkülü və təkamülünün nəzəri əsasları və xüsusiyyətləri”** adlı birinci fəslində BVA-ya dair konseptual ümumiləşdirmələr aparılmış, onun təşəkkülünün əsas konturları təhlil edilmişdir. Tarixi inkişaf prosesində BVA ayrı-ayrı dövlətlər tərəfindən tətbiq edilən ümumi pul siyasəti konturlarının normalaşdırılması cəhdlərini özündə ehtiva etmişdir. Əksərən “sistem” kimi xarakterizə olunan beynəlxalq valyuta münasibətləri çərçivəsində dövlətlər rəqabət imkanlarını və daxili sabitliyi qorumaq üçün müntəzəm müdaxilələr tətbiq etmiş, ölkələrarası bu münasibətlərin effektiv tənzimləmə çərçivələri çox zaman fraqmental olmuşdur.

Təhlillərimiz BVA-nın nəzəri əsaslandırmaları ilə əlaqədar baxışların əsas imperativlərini müəyyən qədər qoruduğunu göstərir. Məsələn, XIX əsrdə yaranan bimetallizm standartında valyuta münasibətləri konkret qayda və ya nizama uyğunluq baxımından dağınıq olmuşdur. Bretton Vuds isə daha çox sistem xüsusiyyətləri ehtiva etsə də, ilkin dizayn problemləri səbəbindən dayanıqlı olmamışdır. Bu baxımdan Bretton Vuds daha çox maraqlar toqquşması fonunda kompromislər hesabına ortaya çıxan tənzimləmələr məcmusu hesab edilə bilər[1]. Makroiqtisadi siyasətlərin effektiv beynəlxalq əməkdaşlıq çərçivəsində uzlaşdırılması problemi də beynəlxalq valyuta münasibətlərinin nə üçün “sistem” anlayışına uyğun gəlmədiyini göstərir.

Tədqiqatda fundamental xüsusiyyətlərinə əsasən BVA-nın təşəkkülündə dörd mərhələ fərqləndirilmişdir: (1) Qızıl standartı; (2) Müharibələrarası dövr; (3) Bretton Vuds və (4) Post-Bretton Vuds.

Qızıl standartından öncəki bimetallizm mərhələsində geniş pul bazasının mövcudluğu qiymət sabitliyi baxımından əhəmiyyətli olmuşdur. Lakin XIX əsrin ikinci yarısından etibarən bimetallizm

---

[1] *Mundell, R. A Reconsideration of the Twentieth Century // The American Economic Review, – 2000, 90(3), – p. 327-340.*

dominantlığını itirmiş və 1867-ci il Paris konfransı ilə qızıl standartının tətbiqinə başlanmışdır. Bu dövrdə qızıl beynəlxalq ödəmə funksiyasını həyata keçirir, milli valyutalar isə bu paritetlər əsasında mübadilə edilirdi.

Birinci Dünya müharibəsindən sonra 1920-ci ildə Brüssel, 1922-ci ildə isə Genuya konfranslarının yekununda funt sterlinq və ABŞ dolları beynəlxalq ehtiyat valyutalar statusu əldə etmiş və qızıl-deviz standartı bərqərar edilmişdir. Bu proseslər qitə Avropasından Birləşmiş Krallığa valyuta axınlarına, qitə Avropasında valyutaların ucuzlaşmasına, Birləşmiş Krallıqda isə funt sterlinqin izafi dəyərlənməsinə və qızıl ehtiyatlarınn azalmasına yol açmışdır.




**Qrafik 1. Aparıcı ölkələrin dünya qızıl ehtiyatlarında çəkiləri**
*Mənbə: Irwin D. Did France cause the Great Depression? // History News Network*

1930-cu illərdə beynəlxalq monetar əməkdaşlığın təmin edilməsi və məzənnə volatilliklərinin aradan qaldırılması üçün müxtəlif təşəbbüslər olmuşdur. 1944-cü ildə keçirilən Bretton Vuds konfransının yekunuda imzalanan sazişlə isə qızıl və ABŞ dollarına əsaslanan qlobal rezerv sistemi formalaşdırılmışdır. Bu mərhələdə BVF-nin timsalında beynəlxalq monetar tənzimləmə daha institutlaşmış xarakter daşıyırdı. BVF timsalında valyuta məzənnələrinin tənzimlənməsinə dair qaydaların mövcudluğuna baxmayaraq makrosəviyyəli siyasət hədəflərinin

fərqlənməsi beynəlxalq monetar əməkdaşlıq imkanlarını azaltmışdır. Artıq 1960-cı illərin ikinci yarısından etibarən qızıla lövbərlənən ABŞ dollarında öhdəliklərin dayanıqsız artması həm müxtəlif aparıcı iqtisadiyyatlarda məzənnə devalvasiyalarına yol açmış, həm də ABŞ-ın qızıl ehtiyatları və xarici ticarət balansı üzrə volatilliklər doğururdu. Bütün bunların fonunda 1971-ci ildə Bretton Vuds sistemi dağıldı və mövcud BVA formatı meydana çıxdı.

Dissertasiyanın **"Qloballaşan iqtisadiyyatda valyuta arxitekturasının yenidən strukturlaşma çağırışlarının əsas istiqamətləri"** adlı ikinci fəslində BVA-nın mövcud böhran çağırışlarına adaptasiya imkanları və islahat istiqamətləri, habelə beynəlxalq monetar əməkdaşlıq problemləri tədqiq edilmişdir. Bu təhlillər nəticəsində BVA-nın dayanıqlığına aşağıdakı başlıca təhdidlər müəyyən edilmişdir:

- Məzənnə səbatsızlıqlarının miqyasının genişlənməsi;
- Qlobal likvidlik təminatı və rezerv sisteminin adekvatlığı problemi;
- Maliyyə qloballaşması və kapital axınlarının volatillikləri;
- Qlobal tənzimləmə çərçivələrinin yetərsizliyi;
- Qlobal institusional idarəetmə xüsusiyyətlərindən qaynaqlanan problemlər.

Təhlillərimiz göstərir ki, xarici sektor səbatsızlıqları və qlobal rezerv sisteminin problemləri dayanıqlı likvidlik təminatı üçün ciddi məhdudiyyətlər doğurur. Qlobal likvidliyi formalaşdıran mənbələrin, ələlxüsus qeyri-bank maliyyə vasitəçiliyinin genişlənməsi likvidlik ehtiyaclarının qarşılanması üçün imkanlar yaratsa da, maliyyə və məzənnə səbatsızlıqlarına yol açır. Bu səbatsızlıqlar fonunda qlobal likvidlik təminatında qlobal maliyyə təhlükəsizliyi şəbəkələrinin rolu artır. Həmçinin regional monetar əməkdaşlıq və likvidlik təminatı mexanizmlərinin formalaşması ilə qlobal tənzimləmə yükünün regional üstmilli institutlara ötürülməsi BVF-nin qlobal iqtisadi sistemdəki funksionallığını məhdudlaşdırır.

Effektiv beynəlxalq monetar əməkdaşlıq çərçivələrinin formalaşdırılması BVA-nın fundamental problemlərindəndir. Dünya iqtisadiyyatının siyasi trilemması fonunda beynəlxalq monetar əməkdaşlıq cəhdləri əksərən spesifik problemə münasibətdə epizodik olur. Çoxvalyutalı qlobal rezerv sisteminin ortamüddətli perspektivdə real görünməməsi fonunda mərkəzi banklar arasında beynəlxalq monetar

əməkdaşlıq mexanizmlərdən istifadə genişlənir.

Qlobal iqtisadi konyunktur çevrilmələri fonunda BVA-da bir sıra format dəyişiklikləri müşahidə olunur ki, bunlar da dissertasiyada iki istiqamətdə təhlil edilmişdir.




**Şəkil 1. BVA-da format dəyişiklikləri**

*Mənbə: Müəllif tərəfindən tərtib olunmuşdur*

Dissertasiyanın **"Dəyişən beynəlxalq valyuta arxitekturası çağırışlarının milli iqtisadiyyata təsir istiqamətləri"** adlı sonuncu fəslində BVF proqramlarının siyasət quruculuğunda rolu tədqiq edilmiş, BVA volatilliklərinin milli iqtisadiyyata müxtəlif təsir kanalları qiymətləndirilmişdir.

Bu fəsildəki təhlillər göstərir ki, BVA-dakı səbatsızlıq və format dəyişikliklərinin milli iqtisadiyyata başlıca təsir amili qismində manat/ABŞ dolları ikitərəfli məzənnəsi çıxış edir ki, bu milli iqtisadiyyata əsasən 2 kanal – monetar və makromaliyyə kanalları vasitəsilə təsir edir. Azərbaycanda BVA səbatsızlıqlarının təsiri tədiyə balansı kanalları üzərindən birbaşa deyil, manatın ABŞ dolları və əsas ticarət tərəfdaşı ölkələrin valyutaları ilə ikitərəfli məzənnəsi dinamikası ilə reallaşır.

Azərbaycan manatının ABŞ dollarının məzənnə dinamikasından asılılığı iki amillə – neft ixracından, bilavasitə "neft dollarları"ndan yüksək asılılıq və cari əməliyyatlar balansının komponentləri, xüsusilə idxalın maliyyələşdirilməsi zərurəti ilə bağlıdır. Bu amillərin təsiri altında ölkədə tətbiq olunan məzənnə və pul siyasəti rejimləri xarici şokların milli iqtisadiyyata aktiv ötürücüsünə çevrilir.




**Qrafik 2. Manatın real effektiv mәzәnnәsinin vә neft qiymәtlәrinin tәrәddüd sinxronluğu**

*Mәnbә: Azәrbaycan Mәrkәzi Bankı vә Macrotrends*

Yüksәk neft gәlirlәri dinamikasının fonunda fiskal siyasәtin protsiklikliyi vә idxal inflyasiya tәzyiqi[2] ölkәdә qiymәtlәrin sabitliyinin tәmin edilmәsi üçün manatın mәzәnnәsinin ABŞ dollarına lövbәrlәnmәsini şәrtlәndirir. Ölkәnin makroiqtisadi konyunkturu vә bundan qaynaqlanan mәzәnnә tәrәddüdlәri maliyyә vә kapital hesabı üzrә balansın formalaşmasında ikitәrәfli mәzәnnә sәviyyәsini hәlledici amilә çevirir.

BVA volatilliklәrinin milli iqtisadiyyata makromaliyyә tәsir imkanları qismindә üç kanal – dollarlaşma sәviyyәsi, ölkәnin strateji valyuta ehtiyatları vә xarici borc dayanıqlığı qiymәtlәndirilmişdir. Milli iqtisadiyyatda dollarlaşma sәviyyәsinin formalaşmasında iki amil – manatın ABŞ dolları ilә ikitәrәfli mәzәnnәsi vә valyuta bazarındakı

[2] *Hüseynov, E. Azәrbaycanda manatın real mәzәnnәsinin dәyişiminin qeyri-neft sektorunun sahәlәrinә tәsiri:/iqtisad üzrә fәlsәfә doktoru dis. avtoreferatı. / –Bakı, 2014. – 21 s.; Rahimov, V., Jafarova, N. The Exchange Rate Pass-Through to CPI Inflation and Its Components in Azerbaijan // Central Bank of Azerbaijan Working Paper Series No. 01/2017, – 2017. – 30 p.*

konyunkturun əsas rol oynayır. Dövlət Neft Fondunu (ARDNF) ehtiyatlarının makroiqtisadi bufer şəklində intensiv istifadəsi isə uzunmüddətli dövrdə makromaliyyə sabitliyi üçün dayanıqlıq risklərinə yol açır.

Digər makromaliyyə təsir kanalı olan xarici borc üzrə məzənnə riskinin mənbəyi qismində BVA deyil, daha çox qlobal neft konyunkturu amilləri çıxış edir. Ümumilikdə isə xarici dövlət borcunun mövcud portfeli üzrə təhlillərimiz ortamüddətli dövrdə BVA volatilliklərinin borc dayanıqlığı üzərindən milli iqtisadiyyata təsir imkanlarının məhdudluğunu, lakin xarici dövlət borcunun idarəedilməsinin təkmilləşdirilməsi zərurətini göstərir.

Son olaraq Azərbaycan iqtisadiyyatı üçün yeni keyfiyyət mərhələsinə keçidin əsas çağırışları və perspektivləri təhlil edilmişdir. Bu çərçivədəki təhlillər neft bumu mərhələsində həyata keçirilən iqtisadi şaxələndirmə siyasətlərinin milli iqtisadiyyatda resurs sektorunun mövqeyinin güclənməsi və makroiqtisadi siyasət dizaynının başlıca yönəldicisi kimi çıxış etməsini qismən məhdudlaşdırdığını göstərir.

# NƏTİCƏ

Dissertasiya çərçivəsində aparılan tədqiqatların əsasında BVA-nın tarixi təkamülü, mövcud funksional və struktur çağırışları və bu amillərin milli iqtisadiyyata təsir kanallarının identifikasiyası üzrə əsas *nəticə*ləri aşağıdakılar kimi ifadə edə bilərik:

1. Mahiyyət etibarı ilə müxtəlif dövlətlər tərəfindən tətbiq edilən ümumi pul siyasəti konturlarının normalaşdırılması mexanizmi və cəhdləri kimi xarakterizə olunan BVA tarixi inkişafı boyunca fraqmental olaraq sistem xarakteri nümayiş etdirmişdir. Müasir şəraitdə milli iqtisadiyyatların makroiqtisadi suverenlik hüdudlarının (siyasət alətləri və hədəfləri baxımından) və dünya iqtisadiyyatına inteqrasiyasının güclənməsi, həmçinin üstmilli institutların siyasət normativləri arasındakı uyğunsuzluqlar beynəlxalq valyuta münasibətlərinin uzunmüddətli effektiv və dayanıqlı tənzimləmə çərçivələrinin formalaşmasını mümkünsüz edir.

2. BVA-nın müxtəlif inkişaf mərhələləri boyunca müşahidə olunan çatışmazlıqların başlıca mənbəyini üç amil – məzənnə rejimi uyğunsuzluqları, xarici sektor səbatsızlıqları və onların ölkələr arasında asimmetik paylanması, qlobal rezerv sistemi və dayanıqlı qlobal likvidlik təminatı çatışmazlıqları təşkil edir.

3. Maliyyə qloballaşması məzənnəyə xarici amillərin təsir imkanlarını artırmaqla bərabər, həm də makrosəviyyədə siyasət quruculuğunun təsir imkanlarını daraldır. Xarici sektor səbatsızlıqlarının asimmetrik paylanması, başqa sözlə tədiyə balansı üzrə profisit və defisit həcmlərinin hədsiz böyüməsi ölkə səviyyəsində tənzimləmə və makroiqtisadi problemlərə yol açır. Mövcud qlobal rezerv sistemi, bütün üstünlüklərə baxmayaraq ABŞ-ın timsalında Triffin dilemması prizmasından fiskal və xarici sektor səbatsızlıqları doğurur. Araşdırmalarımız göstərir ki, defisitlə üzləşən ölkələrdə fiskal konsolidasiya daha çox artıma imkan verəcək səviyyədə həyata keçirilməli, dayanıqsız kredit artımı müşahidə olunan iqtisadiyyatlarda isə makroprudensial siyasət intizamı gücləndirilərək iqtisadiyyatların yeni qapalı kredit bumu dövrəsinə daxil olmasınının qarşısı alınmalıdır. Yüksək profisitli ölkələrdə isə izafi fiskal məkan daraldılmalı, yumşaq pul siyasətlərinin tətbiqi məhdudlaşdırılmalıdır.

4. Qlobal rezerv sisteminin dizayn xüsusiyyətləri ABŞ iqtisadiyyatının tsiklik inkişaf fazalarının digər ölkələr və qlobal maliyyə sistemi üzərində güclü yayılma imkanları doğurur. Bu təsirləri məhdudlaşdırmaq məqsədilə zəruri hesab edilən çoxvalyutalı rezerv sisteminin formalaşdırılması cəhdləri genişlənir. Lakin ABŞ dollarının sahib olduğu faktiki üstünlük fonunda digər beynəlxalq ehtiyat valyutaların alternativ olma imkanları iqtisadiyyatların miqyası, məzənnə sabitliyi, maliyyə bazarlarının inkişaf səviyyəsi, daxili struktur amillər və s. səbəbindən məhduddur. Üstmilli səviyyədə isə BVF-nin emissiya etdiyi XBH-nin funksionallığı və perspektivləri olduqca aşağıdır. Fikrimizcə, son illərdə genişlənməyə başlayan blokçeyn texnologiyaları və rəqəmsal valyutaların qlobal rezerv sisteminin gələcək strukturlaşmasında təsir imkanları böyük olsa da, mövcud inkişaf səviyyəsi onların gələcək təsir imkanlarını proqnozlaşdırmaqda məhdudiyyətlər doğurur.

5. Xarici sektor səbatsızlıqları və qlobal rezerv sisteminin problemləri dayanıqlı likvidlik təminatı üçün ciddi məhdudiyyətlər doğurur. Qlobal likvidlik mənbələrinin artması maliyyə ehtiyaclarının ödənməsi üçün imkanlar yaratsa da, maliyyə və məzənnə səbatsızlıqlarına yol açır. BVA-nın bu səbatsızlıq mənbələrinin fonunda qlobal likvidlik təminatında QMTŞ-nin funksionallığı genişlənir. Regional monetar əməkdaşlıq və likvidlik təminatı mexanizmlərinin formalaşması ilə qlobal tənzimləmə yükünün daha çox regional üstmilli institutlara ötürülməsi BVF-nin funksionallığını məhdudlaşdırır. Eyni zamanda kapital axınları və kredit bumu vasitəsilə likvidlik ehtiyaclarının dayanıqsız artımı qlobal "mərkəzi bank"ın yoxluğu fonunda likvidlik şoklarının tənzimlənməsi imkanlarına mənfi təsir göstərir.

6. Effektiv beynəlxalq monetar əməkdaşlıq BVA-nın fundamental problemlərdən biridir. Dünya iqtisadiyyatının siyasi trilemması fonunda beynəlxalq monetar əməkdaşlıq cəhdləri əsasən spesifik problemlərə münasibətdə qısamüddətli epizodik xarakter daşıyır. Təhlillərimiz göstərir ki, çoxtərəfli nəzarət və əməkdaşlıq mexanizmi qismində BVF çıxış etsə də, beynəlxalq miqyasda bu problemləri tənzimləməyə imkan verəcək və ölkələr tərəfindən tətbiqi məcburi xarakter daşıyan normalar mövcud deyil. Bu səbəbdən artıq ölkələr tərəfindən regional və ya strateji siyasi-iqtisadi əməkdaşlıq maraqları çərçivəsində

müxtəlif əməkdaşlıq formatları təşəkkül tapır.

7. Beynəlxalq monetar əməkdaşlığın institusional strukturundakı başlıca dəyişiklik mərkəzi bankların rolunun artması, qlobal institutların isə tədrici arxa plana keçməsidir. İEOÖ formal beynəlxalq əməkdaşlıq platformaları əvəzinə, özlərinin monetar müstəqillikdən doğan siyasi nüfuz, eləcə də ikitərəfli əməkdaşlıq formatından istifadə etməyə üstünlük verir. QMTŞ-də baş verən əks-mərkəzləşmə təzahürləri fonunda mərkəzi banklar makrosəviyyədə öz siyasət suverenliklərini üstmilli institutlara ötürməmək üçün daha çox ikitərəfli və ya regional valyuta svopları üzərində əməkdaşlığa üstünlük verir.

8. Apardığımız tədqiqatda BVA-dakı format dəyişiklikləri iki istiqamətdə qruplaşdırılmışdır. Birinci istiqamət funksional xarakterli dəyişiklikləri – yeni qlobal rezerv sisteminin formalaşdırılması, maliyyə texnologiyalarının genişlənməsindən qaynaqlanan funksional və tənzimləmə problemləri və maliyyə qloballaşmasından doğan kapital axını volatilliklərini əhatə edir. İkinci istiqamət əsasən institusional xarakterli məsələləri əhatə edir ki, bu da BVF islahatlarını, qlobal makroiqtisadi siyasət əməkdaşlığının gücləndirilməsini və qlobal iqtisadi güc mərkəzi yerdəyişmələrinin BVA üzərində şərtləndirdiyi dəyişiklikləri ehtiva edir.

9. Təhlillərimiz hər hansı milli valyutanın dominantlığı altında qurulan qlobal rezerv sistemlərində istər sabit, istərsə də üzən məzənnə rejimlərinin tətbiqi altında çoxtərəfli effektiv əməkdaşlıq və fəaliyyət mexanizmlərinin qurulması imkanlarının məhdudluğunu göstərir. Hər hansı milli valyutanın dominantlığı altında qlobal likvidliyin təmin edilməsi rezerv emitenti üçün daxili pul siyasəti ilə xarici stabillik hədəfləri arasında seçim imkanlarını məhdudlaşdırır (Triffin dilemması), aparıcı iqtisadiyyatlar arasında valyuta məzənnələri üzərindən rəqabət isə qlobal rezerv sisteminin dayanıqlığı üçün təzyiq yaradır. Son onilliklərdə çoxvalyutalı rezerv sisteminə keçid çağırışları və cəhdləri artsa da, çoxqütblü rezerv sistemi dayanıqlı qlobal likvidlik sisteminin qurulmasına baxımından yüksək imkanlar təqdim etmir, əksinə spekulyativ və ya gəlir axtarışı motivləri əsasında dominant valyutalar arasında kapital axınlarının yerdəyişməsi daha ciddi dayanıqlıq problemləri doğura bilər. Hesab edirik ki, bu xroniki problemlər qlobal rezerv sisteminin gələcək formatlarında da mövcudluğunu davam

etdirəcəkdir. Müxtəlif texnologiyalı rəqəmsal valyutaların yüksəlişi beynəlxalq ehtiyat valyuta emitentinə çevrilmək uğrunda rəqabəti milli dövlətlərin inhisarından çıxararaq bu prosesdə özəl sektorun (xüsusilə texnoloji şirkətlərin) aktiv iştirakına yol açır.

10. Qlobal rezerv sisteminin yeni dizaynı çərçivəsində digər istiqamət XBH-nin funksionallığının artırılmasıdır. Bunun üçün daha geniş miqyasda və üzv dövlətlərin BVF-dəki kvota paylarından sərbəst olaraq XBH yerləşdirilmələri həyata keçirilməli, xüsusilə İEOÖ-nün bu resurslardan istifadə imkanları artırılmalıdır. XBH-nin hesablaşma vahidi kimi istifadəsinin artması onun mübadilə funksiyasının, bilavasitə XBH-də ifadə olunmuş likvidlik imkanlarının genişlənməsinə səbəb ola bilər. Bizim qənaətimizə görə ikitərəfli əvəzləmə hesabı mexanizmi tətbiq etməklə həm BVF üzv dövlətlərdəki valyuta ehtiyatlarının toplanması ilə özünün kapital ehtiyaclarını ödəyə, həm də üzv dövlətlər öz valyuta ehtiyatları əvəzinə XBH resurslarından istifadə edə bilərlər.

11. Fintex məhsullarının miqyasının genişlənməsi makro və qlobal səviyyədə siyasət quruculuğu üçün yeni funksional və institusional çağırışlar doğurur. Bu çərçivədə, xüsusilə özəl subyektlər tərəfindən rəqəmsal valyutaların emissiyası istiqamətindəki təşəbbüslər ilk növbədə valyuta münasibətlərinin uzunmüddətli inkişaf tarixində suveren dövlətlərin hüquqi inhisarında olan emissiya imtiyazlarının yenidən özəl subyektləri üçün əlçatan olmasını, bu isə bütövlükdə iqtisadi siyasət quruculuğunun, əlalxüsus mərkəzi bankçılıq paradiqmalarında yenilikləri şərtləndirir. Mərkəzi banklar tərəfindən rəqəmsal valyutaların emissiyası onlara mövcud mandatlarını qorumaq imkanı versə də, bankların maliyyə vasitəçiliyi funksiyasının zədələnməsinə yol aça bilər. Bu çərçivədə mövcud şəraitdə adekvat siyasət yanaşması kimi rəqəmsal valyutaların emissiyası üzrə (mərkəzi banklar və özəl sektor tərəfindən buraxılan) tənzimləmə çərçivələrinin gücləndirilməsi və bu prosesin maliyyə vasitəçiliyi institutunun zədələnməsinə imkan verməyən mexanizmlərin formalaşdırılması çıxış edir.

12. BVA çərçivəsində mühüm format çağırışlarından biri institusional idarəetmə və tənzimləmə çərçivələrində islahatları əhatə

edir. Xüsusilə BVF-yə münasibətdə islahat çağırışları həm institusional (idarəetmə və kvota sistemi), həm də funksional (tənzimləmə, nəzarət və maliyyələşmə mexanizmləri) aspektlərini əhatə edir. Lakin hesab edirik ki, iqtisadi qloballaşmanın güclənməsi, inteqrasiya və milli dövlətlərin suverenliyi dilemması fonunda BVA-dakı dəyişikliklərin formalaşmasında ölkələrə daha geniş suverenlik və siyasət manevri imkanları verən regional əməkdaşlıq mexanizmləri gələcəkdə çoxtərəfli qlobal institutlara nəzərən daha böyük rol oynayacaq.

13. Araşdırmalarımız göstərir ki, müasir mərhələdə Azərbaycan iqtisadiyyatın dayanıqlıq çağırışları onun qlobal iqtisadi sistemdə iştirak perspektivlərini, habelə BVA səbatsızlıqlarının milli iqtisadiyyata təsir kanallarını formalaşdıran əsas amillərdir. Təhlillərimiz nəticəsində belə struktur inkişaf çağırışları qismində çoxölçülü tranzitivlik mərhələsinin tamamlanması, struktur şaxələndirilməsində resurs funksionallığının genişləndirilməsinin prioritetliyinin təmin edilməsi, institusional inkişafın bazar yetişkənliyi, dövlətin iqtisadi funksionallığı və s. kontekstlərdə sürətləndirilməsi və iqtisadi siyasət quruculuğunun inkişaf çağırışlarına uyğun formada institusional və funksional modernizasiyası müəyyən edilmişdir.

14. Milli iqtisadiyyatın struktur xüsusiyyətləri nəzərə alınmaqla hesab edirik ki, BVA-dakı səbatsızlıq və format dəyişikliklərinin milli iqtisadiyyata mühüm təsir kanalı kimi manat/ABŞ dolları ikitərəfli məzənnəsində baş verən dəyişikliklər çıxış edir. Bu dəyişikliklər milli iqtisadiyyata əsasən monetar və makromaliyyə kanalları vasitəsilə təsir edir. Azərbaycanda BVA səbatsızlıqlarının təsiri tədiyə balansı kanalları üzərindən birbaşa deyil, manatın ABŞ dolları və əsas ticarət tərəfdaşı ölkələrin valyutaları ilə ikitərəfli məzənnə dinamikası ilə reallaşır.

15. Azərbaycan manatının məzənnəsinin ABŞ dollarının məzənnə dinamikasından yüksək asılılığı iki amillə – "neft dolları"ndan yüksək asılılıq və CƏB-in digər komponentləri, xüsusilə idxalın maliyyələşdirilməsi zərurəti ilə bağlıdır. Bu amillərin təsiri altında ölkədə tətbiq olunan məzənnə və pul siyasəti rejimləri xarici şokların milli iqtisadiyyata aktiv ötürücüsünə çevrilir. Digər tərəfdən ölkənin makroiqtisadi konyunkturu və bundan qaynaqlanan məzənnə tərəddüdləri maliyyə və kapital hesabı üzrə balansın formalaşmasında ikitərəfli məzənnə səviyyəsini həlledici amilə çevirir.

16. BVA volatilliklərinin milli iqtisadiyyata makromaliyyə təsir imkanları qismində üç kanal – dollarlaşma səviyyəsi, ölkənin strateji valyuta ehtiyatları və xarici borc dayanıqlığı üzrə qiymətləndirilmişdir. Ölkə iqtisadiyyatında dollarlaşma səviyyəsinin formalaşmasına iki amil – manatın ABŞ dolları ilə ikitərəfli məzənnə tərəddüdləri və valyuta bazarındakı konyunktur təsir göstərir. Lakin eyni zamanda digər amillər – pul siyasəti mövqeyi, məzənnənin inflyasiya yüksək ötürücülüyü, iqtisadiyyatın xarici sektor üzrə həssaslığı, milli valyuta üzərində spekulyativ təsir imkanları, eləcə də maliyyə sektorunun struktur problemləri də dollarlaşmaya aktiv təsir göstərir.

17. ARDNF-nin ehtiyatlarının strukturunun valyuta, alətlər, ödəmə müddəti üzrə təhlili mövcud investisiya portfelinin BVA səbatsızlıqlarına münasibətdə itkilərini qismən məhdudlaşdıra bildiyini göstərsə də, ARDNF-nin kvazi-fiskal öhdəliklərlə hədsiz yüklənməsi bu itkilərin onun makroiqtisadi stabilləşdirici funksionallığına təhdidlər yaradır. ARDNF-nin ehtiyatlarından makroiqtisadi bufer şəklində istifadəsi qısamüddətli dövrdə ölkənin strateji valyuta ehtiyatlarının protsiklik siyasət hədəflərinin təsiri altında azalmasına və uzunmüddətli dövrdə makromaliyyə sabitliyi üçün dayanıqlıq risklərinə yol açır.

18. Xarici borc üzrə təhlillərə əsaslanaraq hesab edirik ki, burada məzənnə riskinin mənbəyi qismində BVA deyil, daha çox qlobal neft konyunkturu amilləri çıxış edir. Ümumilikdə isə xarici dövlət borcunun mövcud portfeli üzrə təhlillərimiz ölkənin ortamüddətli dövrdə BVA volatilliklərinin borc dayanıqlığı üzərindən milli iqtisadiyyata təsir imkanlarının məhdud olduğunu, lakin xüsusilə xarici dövlət borcunun idarəedilməsi üzrə mövcud siyasətin təkmilləşdirilməsinə ciddi ehtiyacın olduğunu göstərir.

19. Dissertasiya çərçivəsindəki təhlillərimizin yekunu olaraq hesab edirik ki, müasir mərhələdə Azərbaycan iqtisadiyyatının xarici şoklara qarşı dayanıqlığının gücləndirilməsi məqsədilə aşağıdakı zəruri siyasət tədbirləri həyata keçirilməlidir:

- Dayanıqlı iqtisadi inkişafın təmin edilməsi və struktur transformasiyanın tamamlanması istiqamətində:

- İqtisadi şaxələndirmə çərçivəsində struktur islahatların, qlobal trendlər və sektorlar üzrə rəqabətlilik imkanlarının qiymətləndirilməsi,

habelə daha yüksək əlavə dəyər potensialına malik sektorların dəstəkləməsi əsasında həyata keçirilməsi;

- Siyasət quruculuğunun institusional və funksional imkanlarının genişləndirilməsi, makroiqtisadi siyasət intizamının gücləndirilməsinə üçün zəruri mexanizmlərin (büdcə qaydası, xarici borclanma qaydaları, qayda-əsaslı pul siyasəti və s.) sadəcə de-yure deyil, həmçinin de-fakto tətbiqi;

- İqtisadi şaxələndirmənin maliyyələşmə ehtiyaclarının qarşılanması məqsədilə maliyyə vasitəçiliyinin gücləndirilməsi, maliyyələşmənin yüksək xərctutumluluğuna yol açan amillərin – aşağı yığım səviyyəsi, məhdud daxili və xarici maliyyələşmə imkanlarının aradan qaldırılması;

- İqtisadi şaxələndirmə çərçivəsində özəl sahibkarlığın iştirakçılığının artırılması, dövlət müdaxiləsinin doğurduğu bazar uğursuzluqlarının məhdudlaşdırılması və fiskal yükün azaldılması.

Pul siyasəti quruculuğunun təkmilləşdirilməsi istiqamətində:

- Pul siyasətinin ötürücülük mexanizmlərinin gücləndirilməsi çərçivəsində faiz dərəcəsi kanalının işləkliyinin artırılması üçün maliyyə sektorunda struktur islahatlar aparmaqla təkmil maliyyə vasitəçiliyi sisteminin formalaşdırılması və pul siyasətinin iqtisadiyyatın real sektoruna təsir imkanlarının artırılması;

- Məzənnənin yüksək inflyasiya ötürücülüyü real sektorun inkişafına və iqtisadi agentlər üzərində adekvat gözləntilər kanalının formalaşdırılmasına təhdid yaradır. Bu baxımdan, adekvat məzənnə rejiminin tətbiqinin real sektordakı struktur dəyişikliklərdən ciddi asılığını nəzərə alaraq cari struktur və islahat çağırışları fonunda lövbərli tənzimlənmədən çevik üzən tənzimləmə rejiminə keçid məqsədəuyğun hesab edilir.

- Makroiqtisadi sabitliyin təmin edilməsində maliyyə sabitliyinin əhəmiyyətini nəzərə alaraq hesab edirik ki, bu istiqamətə yönəlmiş tədbirlər mütləq qaydada fiskal və pul siyasətlərinin səmərəli, çevik və nəticəli koordinasiyası şəraitində təmin edilməlidir. Bu xüsusda İqtisadi Şuranın iqtisadi siyasət koordinasiyasının gücləndirilməsi məqsədilə institusional və funksional aspektlərdən gücləndirilməsi məqsədəuyğun hesab edilir.

**Dissertasiya işi üzrə dərc olunmuş məqalə, konfrans**

**materialı və tezislər:**

1. Müasir konyunktur çağırışların fonunda qlobal iqtisadi siyasətdə koordinasiya problemi // – Bakı: Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Strateji Təhlil jurnalı, –2016. – № 1-2 (15-16), – s. 325-344.
2. A new era of monetary policymaking in the light of the post-crisis challenges // – Istanbul: Turkish Economic Review, – 2016, 3(3), – p. 473-494.
3. Qlobal iqtisadi konyunktur və makroiqtisadi dayanıqlıq: qlobal durğunluqdan dayanıqlı iqtisadi artıma keçid çağırışları // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2016. – № 5, – s. 35-47.
4. Fiscal decentralization and economic growth: A dilemma between theory and empiricism // – Baku: Khazar Journal of Humanities and Social Sciences, – 2017, 3, – p. 77-94.
5. Bretton-Vuds mərhələsində qlobal likvidlik təminatı xüsusiyyətləri və problemləri // Bakı: AMEA İqtisadiyyat İnstitutu, “Elmi əsərlər” toplusu, – 2018, № 3, s. 70-80.
6. Qlobal iqtisadi normallaşma: yüksələn iqtisadiyyatlı ölkələr üçün dayanıqlı inkişaf çağırışları // – Bakı: Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Strateji Təhlil jurnalı, – 2018. – № 3-4 (25-26), – s. 209-225.
7. Qızıl standartı mərhələsində beynəlxalq valyuta münasibətlərinin təşəkkülü və başlıca xüsusiyyətləri (1871-1944-cü illər) // – Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, – 2018. – № 6, – s. 233-242.
8. Müasir inkişaf mərhələsində Azərbaycanda iqtisadi şaxələndirmə və pul siyasəti çağırışları // – Bakı: Azərbaycanda iqtisadi islahatların həyata keçirilmə xüsusiyyətləri və problemləri: Elmi əsərlər toplusu, – 2018. – № 18, – s. 37-50.
9. Qlobal maliyyə təhlükəsizlik şəbəkələri və qlobal likvidlik: dayanıqlıq problematikası // – Bakı: Azərbaycan Universiteti İpək Yolu jurnalı, – 2019. – № 2, – s. 81-91.
10. Qlobal rezerv sistemində yeni formatlaşma və qütbləşmə tendensiyaları // Gəncə: Azərbaycan Texnologiya Universiteti, İnnovasiyalı iqtisadiyyat və menecment jurnalı, –2020, №2(4), -s.100-106.

11. Azərbaycanda iqtisadi şaxələndirmə iqtisadi təhlükəsizliyin mühüm amili kimi // – Bakı: Gənc tədqiqatçı jurnalı, – 2021. – № 1, – s. 208-213.

12. Müasir mərhələdə milli iqtisadiyyatda inkişaf hədəflərinin uzlaşdırılması çağırışları // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri, – 2021. – № 9, – s. 85-99.

13. Институциональное структурирование глобальной ликвидности и перспективы развития // – Москва: Современная наука: Актуальные проблемы теории и практики-Серия Экономика и Право, – 2022. – № 1, с. 22-27.

14. Milli iqtisadiyyatın şaxələndirilməsi və struktur islahatlar // Sənayenin müasir vəziyyəti və inkişaf problemləri: texnoparkların və sənaye məhəllələrinin ölkənin iqtisadi inkişafına təsiri mövzusunda Respublika elmi-praktiki konfransının materialları, – Bakı, Azərbaycan: 30 aprel, – 2019, – s. 363-365.

15. Global Liquidity Challenges of the International Monetary System // RAIS Conference Proceedings, – Maryland, USA: June 1-2, – 2020, – p. 241-250.

16. Azərbaycanın geoiqtisadi inkişaf imperativləri fonunda iqtisadi şaxələndirmə çağırışları, Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu mövzusunda Respublika elmi konfransının materialları, – Sumqayıt, Azərbaycan: 22-23 oktyabr, – 2020, – s. 129-134.

17. Macroeconomic Sustainability Challenges of Azerbaijan: A New Approach to Economic Diversification // 70th International Scientific Conference on Economic and Social Development, Book of Proceedings, – Baku, Azerbaijan: June 25-26, – 2021, – p. 309-319 (Co author: Hasanov R.)

18. İqtisadi islahatların müasir mərhələsində Azərbaycanın iqtisadi inkişaf paradiqması seçimi // Gənc tədqiqatçıların V Beynəlxalq elmi konfransının materialları, – Bakı, Azərbaycan: 29-30 aprel, – 2021, – c. 2, – s. 515-517.

19. Роль координации макроэкономической политики в обеспечение устойчивого развития в Азербайджане // Материалы XXII Международной научной конференции, – Минск, Беларусь: 20-21 октября, – 2021, – с. 9-10.

20. Müasir qlobal iqtisadi sistem dəyişiklikləri fonunda BVF-də islahat istiqamətləri // İqtisadiyyat və idarəetmədə davamlı inkişaf: hədəflər və perspektivlər mövzusunda beynəlxalq elmi-praktiki konfransının materialları, Bakı, Azərbaycan: 24-25 dekabr 2021, s. 65-68.

21. Beynəlxalq valyuta arxitekturası volatilliklərinin Azərbaycan iqtisadiyyatına təsir kanalları // Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər mövzusunda I beynəlxalq elmi konfransın materialları, – Mingəçevir, Azərbaycan: 10-11 dekabr, – 2021, – c. 2, – s. 351-354.

22. Rəqəmsal valyutalar və beynəlxalq valyuta arxitekturasının struktur çağırışları // Rəqəmsal iqtisadiyyat: müasir çağırışlar və real imkanlar mövzusunda II beynəlxalq konfransın materialları, – Bakı, Azərbaycan: 28-29 aprel, – 2022, – s. 544-547.

23. Challenges of Special Drawing Rights (SDR) to Become a Global Reserve Asset // 2nd International Congress on Economics and Administrative Sciences, – Bishkek, Kyrgyz Republic: June 9-11, – 2021, – p. 48.

Dissertasiyanın müdafiəsi 25 iyun 2023-cü il tarixində saat 10:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında www.unec.edu.az yerləşdirilmişdir.

Avtoreferat 26 may 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:25.05.2023. Kağızın formatı: 60x84 1/16.
Sifariş 21/04. Həcmi 1 ç.v. (37911 işarə)
Ofset kağızı №1. Tiraj 100.

“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.